*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 20 may 2020-ci il № 30 (2448) Qiyməti 30 qəpik


# Sumqayıtda “Gilan Tekstil Park” MMC-nin tibbi maska fabrikinin və qoruyucu kombinezonların istehsalı müəssisəsinin açılışı olub

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 12-də Sumqayıtda "Gilan Tekstil Park" Məhdud Məsuliyyətli Cəmiyyətinin tibbi maska fabrikinin və tikiş fabrikinin nəzdində fəaliyyət göstərən qoruyucu kombinezonların istehsalı müəssisəsinin açılışında iştirak ediblər.*



AZƏRTAC xəbər verir ki, "Gilan Tekstil Park" Məhdud Məsuliyyətli Cəmiyyətinin baş direktoru Mehriban Axundova dövlətimizin başçısına və birinci xanıma müəssisələrin fəaliyyəti barədə məlumat verdi.

Bildirildi ki, tibbi maska fabrikində birdəfəlik istifadə üçün maskalar istehsal olunacaq. Maskalar üçqatdır və orta qatı xüsusi süzgəc funksiyasını yerinə yetirən toxunmamış parçadan ibarətdir. Bu maskalar müxtəlif kateqoriyalı virus və infeksiyalara qarşı davamlıdır. İlk mərhələdə fabrikdə gün ərzində 140 min ədəd maska istehsalı nəzərdə tutulur. May ayının sonunadək burada əlavə avadanlıq quraşdırılacaq. Bu isə öz növbəsində istehsal gücünü artırmağa imkan verəcək. Beləliklə, fabrikdə mərhələli şəkildə bu göstərici 300 min ədədədək artırılacaq. Hazırda istehsalat prosesinə cəlb olunmuş işçilərin sayı 30 nəfərdir, əlavə avadanlıq quraşdırıldıqdan sonra isə 50 nəfərə çatacaq.

"Gilan Tekstil Park" Məhdud Məsuliyyətli Cəmiyyətində birdəfəlik istifadə üçün qoruyucu kombinezonların da istehsalına başlanılıb. Məhsullar polietilen qoruyucu membranla örtülüb, yüksək sıxlıqlı polipropilendən olan toxunmamış parçadan tikilir. Bu isə öz növbəsində məhsulun keyfiyyətini artırır. Belə ki, bu parça möhkəmliyi, sukeçirməzliyi, kimyəvi maddələrə davamlılığı, yüngüllüyü ilə fərqlənir. İstehsal olunan qoruyucu kombinezonlar istifadəçiləri virus, infeksiya, zərərli kimyəvi maddələrdən və ya həssaslıq yarada bilən məhsul və proseslərdən qoruyur. Məhsulun uyğunluğu müvafiq standartlar üzrə sertifikatlaşdırılıb. Burada gün ərzində 6 min ədəd qoruyucu kombinezonun istehsalı nəzərdə tutulur. Müəssisənin istifadəyə verilməsi yeni iş yerlərinin açılması baxımından da böyük əhəmiyyət daşıyır. Belə ki, buradakı istehsalat prosesinə 210 işçi cəlb olunub. Yerli tələbat ödənildikdən sonra həm tibbi maskaların, həm də qoruyucu kombinezonların ixracı da nəzərdə tutulur. Beləliklə, bu cür müəssisələrin fəaliyyətə başlaması Azərbaycanın ixrac potensialının artırılmasına xidmət etməklə bərabər, qeyri-neft sektorunun inkişafı baxımından da böyük rol oynayır.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva müəssisələrin bir qrup işçisi ilə görüşdülər.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

- Koronavirus pandemiyası ilə əlaqədar Azərbaycanda tibbi sənayenin inkişafı daha aktual mövzuya çevrilibdir. Bildiyiniz kimi, bu sahə Azərbaycanda az inkişaf edib, bir çox hallarda biz idxaldan asılı idik və bu gün də bu, davam edir. Ancaq koronavirus pandemiyası hər bir ölkə üçün gözlənilməz bir bəla oldu və bütün ölkələr, ilk növbədə, öz daxili resurslarını səfərbər etməyə çalışmış və pandemiyaya qarşı mübarizə üçün lazım olan tədbirləri görməyə başlamışdır, o cümlədən Azərbaycan. Deyə bilərəm ki, Azərbaycan ilk qabaqlayıcı addımlar atan ölkələrdəndir. Məhz bu addımlar nəticəsində biz bu günə qədər vəziyyəti tam nəzarətdə saxlayırıq və yoluxanların sayı kifayət qədər azdır. Əlbəttə ki, indiki şəraitdə karantin rejiminin təmin edilməsi, gözlənilməsi pandemiyaya qarşı mübarizə işində əsas məqsədlərdən biridir. Hesab edirəm, bu müddət ərzində hər bir ölkə gördü ki, çətin vəziyyətdə, çətin şəraitdə bəzi ölkələr özlərinə qapanır, bəzi ölkələr ancaq öz daxili bazarlarını təmin etmək üçün çalışır. Əlbəttə, müəyyən çətinliklər də yarandı, xüsusilə tibbi ləvazimatların, tibbi avadanlıqların alınması və ölkəmizə gətirilməsi üçün. Bir daha gördük ki, tibbi sənayenin inkişafı böyük əhəmiyyət daşıyır. Son müddət ərzində bu istiqamətdə müəyyən addımlar atılmışdır, Pirallahı adasında iki müəssisə fəaliyyətə başlamışdır, biri dərman preparatları müəssisəsi, digəri isə tibbi şprislərin istehsalı.

Tibbi maska istehsalı Azərbaycanda, ümumiyyətlə, yox idi, nəzərdə də tutulmurdu. Çox sevindirici haldır ki, özəl sektor böyük sosial təşəbbüs göstərərək, dövlətin çağırışına cavab verərək qısa müddət ərzində bizim üçün lazım olan - həm həkimlər, həm də adi vətəndaşlar üçün lazım olan bu vasitələri istehsal etməyə başlamışdır. Bu gün bu müəssisədə fəaliyyətə başlamış tibbi maska fabriki ölkəmizdə ikinci istehsalat sahəsidir. Birinci müəssisə də Sumqayıt şəhərində yerləşir, Sumqayıt Kimya Sənaye Parkının ərazisində. Əlbəttə ki, əgər bizim inkişaf etmiş müasir sənaye potensialımız olmasaydı, bu istehsalat sahələrini yaratmaq mümkün olmazdı. Məhz sənayeləşmə siyasəti nəticəsində və xüsusilə Sumqayıt şəhərində yeni müasir sənaye müəssisələrinin fəaliyyətə başlaması nəticəsində qısa müddət ərzində fabriklər öz profilini dəyişdirərək, artıq tibbi maskaları və qoruyucu kombinezonları istehsal etməyə başlamışdır.

Mən 7 il bundan əvvəl bu müəssisənin açılışında olmuşam və şadam ki, bu müddət ərzində bu müəssisə uğurla fəaliyyət göstərib. Bu müəssisənin məhsulları həm daxili bazarda tanınır və eyni zamanda, ixrac potensialı da mövcuddur. Bu, onu göstərir ki, müəssisədə istehsal olunan mallar yüksək keyfiyyətə malikdir. Bu gün mənə verilən məlumata görə, kombinezon istehsalı gündə 6 min ədədə çatdırılacaq və həkimlərimizin qorunması üçün bunun xüsusi əhəmiyyəti var. Biz bu günə qədər qoruyucu kombinezonları xaricdən alırıq. Problem onda deyil ki, biz buna vəsait ayırırıq, valyuta xərcləyirik, məsələ ondadır ki, koronavirus pandemiyası dövründə lazım olan vasitələrin alınması problemə çevrilir. Hətta pul olan zamanda bu vasitələrin, avadanlığın gətirilməsi böyük problemdir və biz bu problemlə üzləşmişik. Buna baxmayaraq, biz bütün imkanları səfərbər edib ölkəmiz üçün lazım olan vasitələri gətizdiririk.

**(Ardı 2-ci səhifədə)**

AZƏRBAYCAN ORDUSU

# Sumqayıtda "Gilan Tekstil Park" MMC-nin tibbi maska fabrikinin və qoruyucu kombinezonların istehsalı müəssisəsinin açılışı olub

(Əvvəli 1-ci səhifədə)

Ona görə hesab edirəm ki, bu gün çox əlamətdar gündür. Çünki həm birinci, həm də bu gün burada fəaliyyətə başlayan ikinci tibbi maska istehsalı müəssisəsi bizim daxili tələbatımızı tam ödəməlidir və qoruyucu kombinezonlar da həmçinin. Sənaye potensialının inkişafı, əlbəttə, imkan verdi ki, biz buna nail olaq.

Bütövlükdə bu gün Sumqayıtın inkişafı böyük dərəcədə şəhərin sənaye potensialı ilə bağlıdır. Mənə verilən məlumata görə, "Gilan Tekstil Park"da işləyənlərin 95 faizi Sumqayıt şəhərinin sakinləridir. Son illərdə Sumqayıtda onlarla yeni müəssisə yaradılıbdır və mən bu müəssisələrin açılışlarında iştirak etmişəm. Onların arasında xüsusilə iki nəhəng, flaqman müəssisəni qeyd etmək istərdim - azot gübrələri zavodu və polimer zavodu. Bu zavodların tikintisinə dövlət çox böyük vəsait xərcləyib. Ancaq digər zavodların fəaliyyəti sırf özəl sektor tərəfindən təşkil edilib, əlbəttə, dövlətin dəstəyilə, dövlət ərazi ayırır. Bildiyiniz kimi, Sumqayıtda iki sənaye parkı fəaliyyət göstərir - Sumqayıt Texnologiyalar Parkı və Sumqayıt Kimya Sənaye Parkı. Sumqayıt Kimya Sənaye Parkının ərazisi 10 hektarlarla ölçülür. Tamamilə təmizlənmiş bu ərazidə yeni infrastruktur layihələri icra edilib. Özəl sektor da artıq bu parkda uğurla fəaliyyət göstərir, hər il burada bir neçə müəssisə açılır. Beləliklə, Sumqayıt nəinki Azərbaycanın, eyni zamanda, Cənubi Qafqazın ikinci böyük sənaye şəhərinə çevrilib. Sovet dövründən fərqli olaraq, bu gün burada fəaliyyət göstərən sənaye müəssisələri bütün ekoloji standartlara cavab verir.

Siz gəncsiniz, siz o illəri xatırlamırsınız. Ancaq sovet dövründə Sumqayıtın yanından keçərkən maşında oturanlar pəncərələri bağlayırdılar, çünki o iydən insanların gözü yaşarırdı. Yəni, Sumqayıt, doğrudan da, böyük bir ekoloji bəla mərkəzi idi. Çünki kimya sənayesinin sürətli inkişafı və bir çox hallarda ekoloji standartlara riayət edilməməsi nəticəsində Sumqayıtın ekoloji vəziyyəti çox ağır idi və burada bir neçə növ xəstəliklər geniş vüsət almışdı. Biz isə Sumqayıtı müasir, təmiz sənaye mərkəzinə çevirdik. Bu gün Sumqayıtın havası Bakının havasından daha təmizdir. Sumqayıtda aparılan yaşıllaşdırma işləri, yeni parkların salınması, ekoloji tədbirlərin görülməsi, uzun illər sumqayıtlıları narahat edən Acıdərə kanalının tamamilə təmizlənməsi və yenidən qurulması xüsusi əhəmiyyət daşıyır. Ona görə bir sənaye şəhəri kimi Sumqayıtın siması tamamilə dəyişib və bu gün ən yüksək standartlara cavab verir. Bununla yanaşı, əlbəttə, digər başqa layihələr də icra edilmişdir. Sosial layihələr - köçkünlər üçün artıq bir neçə ildir ki, böyük şəhərciklər salınır. Mən bu yaxınlarda növbəti şəhərciyin tikintisi ilə tanış olmuşam. Abadlıq işləri aparılır, Sumqayıt bulvarı da, nəhayət ki, fəaliyyətə başlayıb. Bu, mənim çoxdankı arzum idi və bilirəm ki, sumqayıtlılar da həmişə bunu arzulayırdılar. Artıq neçə ildir ki, Sumqayıt bulvarı sumqayıtlıların sərəncamına verilib və çox gözəl istirahət zonasıdır. Bir sözlə, biz bu məsələyə kompleks şəkildə yanaşırıq. Hazırda 2 saylı şəhər xəstəxanasının tikintisi gedir. Biz onu əvvəlcə təmir etmək istəyirdik, sonra gördük ki, tamamilə dağılmış vəziyyətdədir, ora söküldü. 1 saylı xəstəxana fəaliyyətdədir, ikinci xəstəxananın da tikintisi yaxın zamanlarda başa çatacaq.



Əlbəttə ki, bu gün hamımızı və bütün dünyanı narahat edən koronavirus pandemiyasıdır. Bu sahədə də Azərbaycan nümunəvi yanaşma göstərir. Bunu həm Azərbaycan vətəndaşları deyir, - mənə ünvanlanmış minlərlə təşəkkür məktubunda bu, əksini tapır, - həm də beynəlxalq təşkilatlar. Bu yaxınlarda mən Ümumdünya Səhiyyə Təşkilatının Baş direktorundan ikinci məktubu almışam. Birinci məktub mart ayının sonunda mənə ünvanlanıb, ikinci məktub isə mayın 7-də. İkinci məktubda da Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanda koronavirusla mübarizə sahəsində görülmüş işlərə çox yüksək qiymət verir, işlərimizi təqdir edir. Əlbəttə ki, bu, görülmüş işlərə verilən böyük qiymətdir. Ancaq bir daha demək istəyirəm ki, ən böyük qiyməti Azərbaycan xalqı verir.

Bu gün vəziyyəti nəzarətdə saxlamaq o qədər də asan məsələ deyil. Biz bütün səylərimizi insanların sağlamlığının qorunmasına yönəltdik. Pandemiyanın ilk günlərindən demək olar ki, bizim üçün seçim etməkdə heç bir tərəddüdlü məqam olmamışdır. Mən birmənalı şəkildə demişdim ki, ilk növbədə, vətəndaşların sağlamlığı, onların həyatıdır. O ki qaldı, iqtisadi vəziyyətə, hər kəs üçün aydın idi, iqtisadiyyat zərər çəkəcəkdir, nəinki bizim iqtisadiyyatımıza, bütün dünya iqtisadiyyatına böyük ziyan vurulacaqdır. İndi artıq ilkin hesablamalar üzə çıxır və deyilir ki, inkişaf etmiş ölkələrdə bu il iqtisadiyyat 7-10 faiz düşə bilər və bu da təbiidir. Ancaq bizim əsas vəzifəmiz vətəndaşları qorumaq idi. Ona görə məhdudlaşdırıcı tədbirlərin böyük rolu olmuşdur. Əgər biz bu addımları atmasaydıq, indi vəziyyət nəzarətdən çıxa bilərdi, necə ki, bir çox ölkələrdə, o cümlədən inkişaf etmiş ölkələrdə, səhiyyə sistemi bizdən qat-qat inkişaf etmiş ölkələrdə vəziyyət nəzarətdən çıxıb, xəstələr üçün xəstəxanalarda yataqlar çatmır, xəstələr bəzi hallarda xəstəxanalara ümumiyyətlə qəbul edilmir. Artıq sirr deyil ki, bir çox ölkələrdə yüngül simptomlu xəstələri xəstəxanalara qəbul etmirlər. Onlara deyilir ki, gedin öz evinizdə qalın və faktiki olaraq onlar müalicəsiz qalırlar. Bizdə isə bütün xəstələri, bütün yoluxanları, hətta onun simptomu olmasa belə, mütləq xəstəxanalara qəbul edirik. Biz ən müasir xəstəxanalarımızı koronavirus xəstələrinin ixtiyarına vermişik.

Bu yaxınlarda modul tipli birinci xəstəxananın açılışı oldu. Belə xəstəxanaların sayı 10-a çatacaq. Onların 4-ü özəl sektor tərəfindən inşa ediləcək. Bu, bir daha göstərir ki, özəl sektor bizim çağırışımıza cavab verərək öz sosial məsuliyyətini nümayiş etdirir. Eyni zamanda, mənim təşəbbüsümlə yaradılmış Koronavirusla Mübarizəyə Dəstək Fondunda artıq 100 milyon manatdan çox vəsait yığılıb. Hələ ki, 1 manat da xərclənməyib. Biz Fondun fəaliyyəti və nəzarət mexanizmi üçün ictimai nəzarət formatı da yaratdıq. Bu, bir daha göstərir ki, vətəndaşlar, sahibkarlar həmrəylik, birlik nümayiş etdirirlər. Ona görə qabaqlayıcı tədbirlərin görülməsi birinci mərhələdə imkan verdi ki, biz bu vəziyyətdən az itkilərlə çıxaq. Başqa ölkələrlə, o cümlədən əhalisi bizimlə eyni sayda olan ölkələrlə müqayisədə Azərbaycanın vəziyyəti qat-qat yaxşıdır. Ancaq bu, o demək deyil ki, biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməliyik. Koronavirus qeyb olmayıb, koronavirus dolaşır. Peyvənd icad edilənə qədər bu problem mövcud olacaq. Ona görə vətəndaşlar da buna hazır olmalıdırlar. Biz üç həftənin müsbət dinamikasını nəzərə alaraq aprelin 27-dən etibarən yumşalma addımlarımızı atmağa başladıq. Çünki başa düşürük ki, bu, hər kəs üçün çox çətin dövrdür. Ancaq gördük ki, yumşalma tədbirləri artıq başlayan kimi yoluxanların sayı artmağa başladı. Nəyə görə? Çünki vətəndaşlar bir çox hallarda məsuliyyətsizlik göstərirlər, onlara tövsiyə olunan qaydalara əməl etmirlər, maska taxmırlar, məsafə saxlamırlar, dezinfeksiya vasitələrindən istifadə etmirlər. Beləliklə, öz həyatlarını və onlarla təmasda olan yüzlərlə insanın həyatını risk altına atırlar. Ona görə mən bir daha Azərbaycan vətəndaşlarına müraciət etmək istəyirəm, bu qaydalara əməl etmək o qədər də çətin deyil. Həkimlər, mütəxəssislər deyirlər ki, indi əsas şəxsi gigiyenaya fikir vermək, dezinfeksiya vasitələrindən istifadə etmək, bir metr yarım, iki metr məsafə saxlamaq və maska taxmaq lazımdır. Çətin məsələ deyil. Ona görə bütün vətəndaşlardan bir daha xahiş edirəm ki, bu qaydalara əməl etsinlər. İndi biz yumşalma addımlarımızı artırırıq və siz bilirsiniz ki, bütün dünyada bu proses gedir. Hətta bu gün yüzlərlə vətəndaşı vəfat edən ölkələr artıq açılırlar. Çünki başqa cür mümkün deyil. Biz də yavaş-yavaş bu istiqamətdə gedirik. Ancaq burada əsas məsələ vətəndaşların məsuliyyətidir. Çünki dövlət nə lazımdırsa, onu edir. Bütün resurslar səfərbər edilib. Prezidentin ehtiyat fondundan tibbi avadanlıqların, ləvazimatların alınması üçün təxminən 100 milyon manat vəsait ayrılıb və əlavə olaraq 150 milyon manat ehtiyatda saxlanılır.

İşini itirənlər üçün dövlət öz sosial dəstəyini göstərir. İşsiz, qeyri-formal məşğulluqda fəaliyyət göstərən və aztəminatlı kateqoriyaya aid olan 600 min insan dövlətdən iki ay ərzində 190 manat vəsait alır. Pandemiyadan ən çox zərər çəkən özəl sektorda 690 min insanın əməkhaqqının əhəmiyyətli hissəsi dövlət tərəfindən ödənilir. Dövlət sektorunda çalışan 900 min nəfərin hər birinin əməkhaqqı ödənilir. Bu və digər tədbirlərə biz bütövlükdə 3,5 milyard manat vəsait ayırmışıq və nə qədər lazımdırsa, o qədər də ayıracağıq. Ona görə dövlət bu işləri görür, bütün təşkilati məsələləri uğurla həyata keçirir.

Mən qeyd etdiyim kimi, bu sahədə aparıcı beynəlxalq təşkilat olan Ümumdünya Səhiyyə Təşkilatı bizim işlərimizə yüksək qiymət verir. Təkcə o qalıb ki, vətəndaşlar məsuliyyət və nizam-intizam göstərsinlər. Əlbəttə, nəzarətedici mexanizm daha da təkmilləşdirilməlidir. Əlbəttə, karantin rejimi yumşaldıqca, nəzarət etmək üçün də müəyyən problemlər yaranır. Ancaq buna baxmayaraq, bütün müvafiq orqanlara göstəriş verildi ki, onlar nəzarəti gücləndirsinlər. Amma yenə də deyirəm ki, indiki şəraitdə uğurumuzun əsas şərti vətəndaşların məsuliyyəti olmalıdır. Əks təqdirdə, bu xəstəlik nəzarətdən çıxacaq. Biz bunu açıq deməliyik və bilməliyik ki, dövlət nə qədər iş görsə də, vəziyyət nəzarətdən çıxacaq, kütləvi yoluxma halları baş verəcək, insanlar kütləvi qaydada vəfat edəcək, xəstəxanalarda yerlər, reanimasiya şöbələrində süni tənəffüs aparatları çatışmayacaq. Beləliklə, Allah eləməsin, biz indi böyük böhran içində olan ölkələrin vəziyyətinə düşə bilərik. Biz buna qətiyyən yol verə bilmərik. Ona görə mən bir daha bütün vətəndaşlara çağırış edirəm, məsuliyyətli olun, intizamlı olun, qaydaları pozmayın, özünüzü, öz yaxınlarınızı, öz tanışlarınızı qoruyun ki, biz bu bəladan az itkilərlə çıxa bilək.

Mən əminəm ki, biz buna nail olacağıq. Çünki artıq neçə aydır ki, bu pandemiya bütün dünya üçün böyük problemdir. Amma bu günə qədər vəziyyəti nəzarət altında saxlamaq, doğrudan da, böyük nailiyyət hesab oluna bilər. Xüsusilə qeyd etməliyəm ki, indiki şəraitdə cəmiyyətdə mövcud olan həmrəylik bəlkə ən yüksək səviyyədədir. Çünki bütün cəmiyyət bu mübarizədə birləşib.

Fürsətdən istifadə edərək özəl sektorun nümayəndələrinə, ictimai təşkilatlara, ayrı-ayrı adamlara bir daha təşəkkürümü bildirmək istəyirəm, həm ianələrə, həm vətəndaşlara göstərdikləri yardımlara, həm də bu qısa müddət ərzində tibbi sənayeni bizim maraqlarımıza uyğun şəkildə təşkil etdiklərinə görə. Bu gün ehtiyac içində yaşayanlara da özəl sektor, ictimai təşkilatlar tərəfindən yardım göstərilir. Onların arasında birinci yerdə, əlbəttə ki, Heydər Əliyev Fondu dayanır. Fond, ayrı-ayrı adamlar ehtiyacı olan insanlara kütləvi surətdə kömək göstərirlər, kimin imkanı nəyə çatır etməlidir. Bu, bizim xalqımıza xas olan ən yüksək keyfiyyətləri bir daha göstərir. Ümid edirəm ki, pandemiya gec-tez sona çatacaq, ondan sonra bu həmrəylik ovqatı, həmrəylik əhval-ruhiyyəsi cəmiyyətimizdə daha da güclənəcək.

Bugünkü açılışlar münasibətilə Sizi təbrik edirəm, sizə fəaliyyətinizdə yeni uğurlar arzulayıram. Sağ olun.

# Əlahiddə Ümumqoşun Orduda ixtisasdəyişmə və təkmilləşdirmə kurslarını bitirən zabitlərin buraxılış mərasimi keçirilib



Əlahiddə Ümumqoşun Orduda ixtisasdəyişmə və təkmilləşdirmə kurslarının başa çatması münasibətilə buraxılış mərasimi keçirilib. Kursları uğurla bitirən zabitlər yeni vəzifələrə təyin olunublar.

Mərasimdə Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra polkovnik Mehman Gülməmmədov kurslara cəlb edilmiş zabitlərin ixtisaslarına uyğun nəzəri biliklərinin və praktiki vərdişlərinin daha da təkmilləşdirildiyini qeyd edib.

Məzunlar adından Elnur Şəkerov kurslarda qazandıqları yeni taktiki bilikləri xidmət yerlərində uğurla tətbiq edəcəklərinə və ordumuzun peşəkarlığının daha da artırılması üçün əllərindən gələni əsirgəməyəcəklərinə söz verib.

Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev bildirib ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu siyasətinin uğurla davam etdirilməsi nəticəsində bu gün ordumuz dünyanın ən güclüləri sırasında yer alır. Naxçıvan Muxtar Respublikasının etibarlı müdafiəsini təmin edən Əlahiddə Ümumqoşun Orduda peşəkar hərbçilərin yetişdirilməsi ordu quruculuğu istiqamətində görülən işlərin məntiqi davamıdır. Ordumuzun uğurlarında və taktiki təlimlərində hərbi qulluqçuların kurslar zamanı qazandıqları bilik, bacarıq və peşəkarlıq öz sözünü deyir. Təbii ki, bütün bunlar da Naxçıvan Muxtar Respublikasında hərb işinə verilən yüksək qiymətdən xəbər verir.

Çıxışların ardından məzunlara sertifikat və hədiyyələr təqdim edilib.

Kurs birincisi xatirə lövhəsinə buraxılış emblemini vurub və məzunların yeni vəzifələrə təyin olunmaları ilə bağlı əmrlər mərasim iştirakçılarına çatdırılıb.

Əmrlər oxunduqdan sonra məzunların tribuna önündən təntənəli keçidi olub.

**Baş leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

# Naxçıvan Qarnizonu Qoşunlarında təlim-metodiki toplantı keçirilib



"Naxçıvan Qarnizonu Qoşunlarının 2020-ci tədris ilinə uzlaşma planı"na əsasən bölük, batareya komandirləri və müavinləri təlim-metodiki toplantıya cəlb ediliblər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Naxçıvan Qarnizonu Qoşunlarının birləşmə və hissələrində məşğələlərin vahid metodika üzrə keçirilməsinə nail olmaq üçün təşkil olunan toplantıda zabitlərə taktiki sıra üsulu ilə vacib fənlərdən məşğələlər keçirilib.

Zabitlər döyüş sahəsində bölmələrin, şəxsi heyətin və atəşin idarə edilməsi üzrə göstərici və nümunəvi təlimlərin vacib epizodlarını izləyiblər.

Təlimlər zamanı döyüş sahəsində şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin yüksək səviyyədə saxlanılmasında komandirlərin roluna xüsusi diqqət yetirilib.

*Ön xətdən reportaj*

# "Böyük Qələbəni də qazanacağıq"



*Vətən anlayışı geniş mənaya malik məfhumdur. Doğulduğumuz yer, üzərində böyüyüb boya-başa çatdığımız torpaq, yaşadığımız və ən əsası ata-babalarımızdan bizə miras qalan müqəddəs ünvandır Vətən. Uğrunda qan tökdüyün, can verdiyin müqəddəs məkandır Vətən. Əbəs yerə Vətənə olan sevgi Ana sevgisinə bərabər tutulmur. Vətən - Ana qucağıtək, bir milləti və eyni bayraq altında birləşən hər bir vətəndaşı bağrına basan qollardır. Vətən bizə Anamız qədər əzizdir. Ata-babalarımız Ana Vətənimizin hər qarışını qorumağı özlərinə müqəddəs borc bilib, onun uğrunda savaşıblar.*

Əvvəlcə düşmənlə üzbəüz mövqedə, Vətəninin keşiyində gecə-gündüz, şaxta-sazaq demədən ayıq-sayıq xidmət edən "N" hərbi hissəsinin zabiti Həşim Həşimovla görüşüb, ezamiyyət planımızı onun diqqətinə çatdırırıq. Planla tanışlıq və qısa fikir mübadiləsindən sonra zabitin müşayiəti altında döyüş mövqeyinə yola düşürük. Yolüstü Aprel döyüşlərində ordumuz tərəfindən azad edilən ərazilərimizdən keçirik. Təzə yollar salınıb, şəhərcik tikilib, ətraf abadlaşdırılıb. Şəhərcikdə məktəb, məscid və digər iaşə obyektləri əhalinin istifadəsinə verilib. Yaradılan şəhərcikdə artıq vətəndaşlarımız yaşayır, evlərdə işıqlar yanır, həyətlərdə uşaqlar oynayır. Qürurlanırıq.... Sevinirik ki, uzun müddət mənfur düşmən tapdağında olan torpaqlarımızda bu gün o torpaqların həqiqi sakinləri, həmyerlilərimiz yaşayırlar. Yollar uzandıqca yaşayış məntəqələri geridə qalır. Nəhayət, bölməyə çatırıq. Baş leytenant Ramil Sıraclı ilə tanış oluruq. Özü haqqında qısa məlumat verən gənc zabit bildirir ki, 2016-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib. Gənc zabit, həmçinin şəxsi heyətin döyüş ruhundan və bölmədə yaradılan şəraitdən ağızdolusu danışır. Söhbət zamanı şəxsi heyət yataqxananın qarşısında düzülür. Leytenant Nurlan Bənnayev növbəni dəyişən heyətə günün tapşırıqlarını çatdırır. Baş leytenant Ramil Sıraclı qeyd edir ki, yaradılan sosial-məişət şəraiti əsgərlərin xidmətini yüksək səviyyədə təşkil etməsində birbaşa rol oynayır. Əsgərlər postlarda ayıq-sayıq dayanır, vəzifə borclarını bilir və məsuliyyətlərini aydın dərk edirlər. Şəxsi heyət həm fiziki, həm də mənəvi cəhətdən vəzifəsinin öhdəsindən gəlməyi bacarır və verilən tapşırıqları layiqincə icra edir.

Öyrənirəm ki, leytenant Nurlan Bənnayevin atası Aqif Bənnayev birinci Qarabağ müharibəsində könüllülərin sırasında düşmənə qarşı vuruşub. "Hər zaman bölməmizin şəxsi heyətinə Vətəni qorumağın vacibliyindən danışıram. Ön xətdə xidmət etmək çətindir, lakin şərəflidir. Vətənpərvərlik hissi yüksək olan hər bir kəsin qəlbində bir nisgil var - Qarabağ. Bölməmizin əsgərləri Ali Baş Komandanın döyüş əmrini səbirsizliklə gözləyir və düşməni döyüş meydanında darmadağın etmək əzmindədirlər. Tarix boyu yalnız ikiüzlü və fitnəkar siyasət yürüdən düşmənə ordumuz layiqli cavab vermək gücündədir. Məkrli düşmən öz pis niyyətindən əl çəkməyərək təxribatlara əl atsa da, igid əsgərlərimiz onların cavabını verəcəklər. Azərbaycan əsgərinin mübarizliyinə düşmən yaxşı bələddir".

Zabitlə söhbət zamanı divardan asılmış bir şəkil diqqətimi cəlb edir. Aprel döyüşlərində şəhid olmuş hərbi qulluqçularımızın şəkilləri... Şəhid mayorlarımız Elnur Əliyev, Rasim Məmmədov və digər şəhid hərbçilərimiz... Bu döyüşlərdə Azərbaycan Ordusu igid oğulları sayəsində tarix yazdı, tarixə yazıldı. Şübhəsiz ki, onların hər birinin göstərdiyi vətənpərvərlik şücaəti və keçdiyi döyüş yolu gənclərimiz üçün ən vacib örnəklərdəndir. "Vətəni sevən, Vətən yolunda canını fəda edən qəhrəmanlar heç zaman unudulmurlar, əksinə, öz xalqının qəlbində həmişə yaşayırlar", - leytenant Nurlan Bənnayev sanki düşündüklərimi oxuyub fikirlərimə şərik olur. Tariximizə qızıl hərflərlə yazılan Aprel döyüşlərini tarixləşdirən igid oğullarımızın yüksək əzmkarlığı, döyüş ruhu sayəsində bu gün üçrəngli bayrağımız işğaldan azad olunan torpaqlarımızda dalğalanır.

Gənc zabitlə birgə müşahidə mövqelərində dayanan əsgərlərlə kəlmələşirik. Əslən Şamaxı rayonundan olan əsgər Yusif Əliyev müşahidə vaxtı baş verə biləcək istənilən gözlənilməz vəziyyətə hazır olduqlarını bildirir və qeyd edir ki, komandirlərin verdiyi təlimatlara əsasən atəşkəs rejimi pozulduqda düşmən cavab atəşi ilə susdurulur, hər hansı təxribat törətmək cəhdinin qarşısı qısa vaxt ərzində alınır. "Xidmətimiz bir şüar altında qurulub - Vətənə məhəbbət, düşmənə nifrət! Xalqımız bizə inanır, güvənir. Ona görə də çalışırıq ki, bu inama layiq olaq, bizə olan etimadı boşa çıxarmayaq. Komandirlərimizin təcrübələrindən yararlanırıq. Özümüzü daim təkmilləşdirir, hərbi biliklərimizi artırırıq."

Əsgər Əmral Nəzərli də Vətəni qorumağın vacibliyini qeyd edir. "Hər bir vətəndaş böyüyüb boya-başa çatdığı Vətənini qorumalı və ölkəsinin uğurları üçün əlindən gələni əsirgəməməlidir. Artıq neçə aydır ki, ordu sıralarındayam və xidmətimi səngərdə keçirirəm. Sabah "Vətən üçün nə etmisən?" sualı veriləcəyi halda, tam rahatlıqla cavablandıracam ki, çətin mövqelərimizdən birində xidmətim keçib. Xidmət etdiyim hərbi hissə Aprel döyüşlərindən üzüağ çıxıb. Bu gün düşmənlə üzbəüz mövqedə torpaqlarımızı müdafiə etdiyim üçün qürurluyam. Bu, şərəfli vəzifədir. Hər birimiz bu şərəfli vəzifəni dərk edir, üzərimizə düşən öhdəliyi layiqincə yerinə yetiririk."

Əsgər İlham Şəfiyev Aprel döyüşlərində fərqlənən hərbi hissədə xidmət etdiyi üçün keçirdiyi fəxarət hissindən söz açır. O, həmçinin qeyd edir ki, həmin döyüşlərdə iştirak edən və şəhid olan hərbçilərimizin göstərdiyi şücaətlər barədə komandirlərindən çox eşidib. "Aprel döyüşlərində iştirak etməsəm də, komandirlərimin danışdıqları o səhnələri gözlərimin önündə canlandırıram. Vətənimizin varlığı, torpaqlarımızın bütövlüyü uğrunda canından keçən döyüşçülərimiz hər birimiz üçün qəhrəmanlıq nümunəsidir. Bizə əmanət olan bu torpaqları göz bəbəyimiz kimi qorumalı və çalışmalıyıq ki, xalqımız firavan, Vətənimiz isə hər zaman var olsun."

Əsgər Araz Abdullazadə də fikirlərini bizimlə bölüşür. "Böyüklərdən müharibənin çətinlikləri barədə çox eşitmişəm. Əvvəlki illərdə ordumuzun hazırlıqsız olması, nizami ordumuzun olmaması torpaqlarımızı itirməyimizin əsas səbəbləri kimi göstərilirdi. Lakin bu gün ordu sıralarında xidmət edən əsgər kimi demək istərdim ki, təminatımız yüksək səviyyədədir, silah-sursatımız müasir standartlara uyğundur. Hər birimizin ən böyük arzusu Qarabağı azad etmək, onu azad görməkdir. Böyük Qələbəni qazanacağımız günün iştirakçısı olmaq arzusundayam. Ümid edirəm ki, tezliklə Ali Baş Komandanımızın döyüş əmri ilə işğalda olan torpaqlarımızı azad edib, yurdlarından didərgin düşən həmyerlilərimizin yenidən ata-baba ocaqlarına qayıdışlarında vasitəçi olacağıq".

**Baş leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusu genişmiqyaslı əməliyyat-taktiki təlimlərinə başlayıb



Qoşunların 2020-ci ilin döyüş hazırlığı planına uyğun olaraq, Azərbaycan Ordusu genişmiqyaslı əməliyyat-taktiki təlimlərinə başlayıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlimlərdə döyüş hazırlığı, əməliyyatların planlaşdırılması və hərtərəfli təminatı, müxtəlif qoşun növləri və qismlərinin idarəetmə orqanlarının qarşılıqlı əlaqəsi, həmçinin təlimlərin şərtlərinə uyğun olaraq yaradılan zərbə qruplaşmalarının atəş və manevr imkanları yoxlanılacaq.

10.000 nəfərədək şəxsi heyət, 120-dək tank və digər zirehli texnika, 200-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatanlar, 30-dək ordu və cəbhə aviasiyası və müxtəlif təyinatlı pilotsuz uçuş aparatları cəlb olunan təlimlər mayın 22-dək davam edəcək.

Genişmiqyaslı əməliyyat-taktiki təlimlərin planına əsasən, həyəcan siqnalı ilə qaldırılan qoşunlar, komanda idarəetmə məntəqələri, döyüş və ehtiyat hərbi hissələri əməliyyat təyinatı rayonlarına çıxarılır.

Qoşunların yerdəyişməsi tələblərə uyğun olaraq gizli və operativ şəkildə həyata keçirilir.



Şəxsi heyətin və hərbi texnikanın bütün hərəkəti komendant xidməti tərəfindən tənzimlənir.

Keçirilən genişmiqyaslı təlimin niyyətinə uyğun olaraq raket-artilleriya bölmələri daimi dislokasiya məntəqələrini həyəcan siqnalı ilə tərk edərək təyin edilmiş marşrutlarla hərəkət edirlər.

Əməliyyat-taktiki təlimlərində qoşunlar döyüş təyinatı rayonlarına gecə vaxtı çıxarılması tapşırıqlarını icra ediblər.

Qüvvələr vaxt, marşrut, tapşırıqlar üzrə gecə və məhdud görüntü şəraitində yürüş ediblər.

Genişmiqyaslı əməliyyat-taktiki təlimlərin planına uyğun olaraq döyüş aviasiya vasitələrinin yerdəyişməsi həyata keçirilir.

Döyüşə hazır vəziyyətə gətirilən təyyarə və helikopterlər ehtiyat aerodromlara çıxarılır.

Təlimin niyyətinə uyğun olaraq əməliyyatlarda atəş dəstəyi həyata keçirəcək tank bölmələri təyin edilmiş məntəqələrə çıxarıldıqdan sonra növbəti mərhələyə hazırlıqla bağlı tapşırıqlar icra edirlər.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***19 may 2020-ci il.*** Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Qorqan, Kürdlər kəndləri yaxınlığında, həmçinin Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## Azərbaycan Ordusunun arsenalına ən müasir silah və texnikalar daxil edilir

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin apardığı uğurlu islahatlar nəticəsində mütəmadi olaraq ordumuzun arsenalına ən müasir silah və texnikalar daxil edilir. Bunların bir qismi 2018-ci il iyunun 26-da keçirilən Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyinə həsr olunan paradda nümayiş etdirildi. Yüzlərlə zirehli texnika, bir çox gözətçi gəmiləri, hərbi gəmilər, hava hücumundan müdafiə sistemləri, ən müasir standartlara cavab verən qurğular, döyüş təyyarələri, hərbi və nəqliyyat helikopterləri, kəşfiyyat və döyüş pilotsuz uçuş aparatları, artilleriya qurğuları, uzaqmənzilli raketlər, yaylım atəşli raket sistemləri, əməliyyat-taktiki raket kompleksləri hərbi gücümüzün inkişafının göstəricisidir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, ölkəmizdə istehsal olunan bir çox hərbi təyinatlı məhsullar da ordumuzun potensialının gücləndirilməsinə xidmət edən amillərdəndir. Bunun nəticəsidir ki, bu gün Azərbaycan Ordusu dünya miqyasında 50 ən güclü ordu sırasındadır. Bu istiqamətdə aparılan işlər hərbi potensialımızın daha da güclənməsinə xidmət edir.

Təlimlərdə, döyüş şəraitində texnikalar sıradan çıxa bilər. Bu səbəbdən hərbi texnikalarla yanaşı, onların ehtiyat hissələri də gərəklidir. Silahlanmada olan texnikaların ehtiyat hissələri müvafiq müqavilələr əsasında alınır, daxili komissiya tərəfindən yoxlanılır, aktlaşdırılır və bazanın balansına daxil edilir. Hazırda hərbi anbarlarda olan ehtiyat hissələri Rusiya Federasiyasında istehsal edilən "KAMAZ" və Belarus Respublikasının istehsalı olan "MAZ"-a məxsusdur. Anbara qəbul olunan ehtiyat hissələri müəyyən standartlara uyğun olaraq texnikanı istehsal edən qabaqcıl dövlətlərə məxsusdur.

Hərbi hissələrin tələbat sifarişləri, eyni zamanda, Maddi-Texniki Təminat Baş İdarəsinin Silah və Texnika İdarəsinin müvafiq normalara uyğun verdiyi naryadlar əsasında birləşmələrin maddi-texniki təminat taborlarında yerləşən zirehli tank əmlakı anbarlarına aparılır. Sonra hərbi hissələrin tələbatına uyğun bölüşdürülür.

Bundan əlavə, anbarlarda ölkəmizin istehsalı olan ehtiyat hissələri də mövcuddur. Bütün ehtiyat hissələri anbarlarda səliqəli və müvafiq qaydalara riayət edilməklə saxlanılır.

*Gənc zabitlərimiz*

# Şərəfli peşə, parlaq gələcək

Müasir Azərbaycan Ordusunun banisi, Əbədiyaşar Komandan Heydər Əliyev siyasi hakimiyyətinin bütün dövrlərində ordu quruculuğuna yüksək diqqət və qayğı göstərib. Ümummilli Lider gənclərimizdə hərb peşəsinə marağın gücləndirilməsi işinə daim diqqət yetirərək, "Zabit olmaq, hərbi vəzifə daşımaq gənclərimizin ən müqəddəs vəzifələrindən biri olmalıdır" - deyirdi. Hər kəs birmənalı şəkildə dərk edir ki, zabit peşəsi, doğrudan da, ən müqəddəs və vacib peşələrdən biridir. Çünki, bu peşənin sahibləri Vətən qoruyucularıdır.



Dörd bir yanı sıra dağlarla əhatə olunan "N" hərbi hissəsində ənənəyə sadiq qalaraq "gənc zabit" mövzusunda yazı hazırlamaq istəyimi bildirdim. Zabit Rəşad Əliyev baş leytenant Binnət Əsədzadənin adını çəkdi. Nümunəvi xidməti və şəxsi keyfiyyətləri ilə həm əsgərlərinin, həm də yuxarı komandirlərinin rəğbətini qazandığını bildirdi. Gənc zabitin xidmət yerinə yollandıq...

Zabitlə başı qarlı dağların qoynunda yerləşən səngərdə görüşdük. Baş leytenant Binnət Əsədzadə özündən yuxarı rütbəli zabiti nizamnamələr çərçivəsində qarşıladı və xidmətin günün tələbləri səviyyəsində təşkil edildiyini dedi. Bölmənin ərazisini gəzə-gəzə gənc zabitlə söhbətləşirəm. Gənc zabit hərb peşəsini seçməsindən, işinə olan sevgisindən, gündəlik fəaliyyətdən, təminatdan, əsgərlərin xidmətindən, düşmənin atəşkəsi pozmasından... söhbət açdı. Maraqlı və səmimi söhbətimiz çay süfrəsində davam etdi...

Gənc zabit haqqında xeyli məlumat öyrəndim. Əslən Beyləqan rayonundan olan Binnət Əsədzadə hərbçi ailəsində dünyaya göz açıb. Atası Yavər uzun illər gizir rütbəsində ordu sıralarında xidmət edib. Zabitin hərb peşəsinə olan sevgisi də ailədən qaynaqlanıb. Ali Hərbi Məktəbə daxil ola bilməsə də, hərbçi olmaq arzusu ürəyində sönməyib. Təfəkkür Universitetini bitirdikdən sonra "Ehtiyat zabit hazırlığı" kursunu keçib və arzusuna çatıb. "İşini sevməlisən ki, uğur da qazanasan", - deyən Binnət atasından ilham alıb seçdiyi yolun müqəddəsliyindən danışdı. "Çox vaxt peşə seçimində oğul atasına istinad edir. Ata yolunun davamçısı olmaq istəyir. Mən də uşaqlıqdan atamı hərbi mundirdə görmüşəm. Bir çox bayramları hərbi hissədə əsgərlərlə bir arada keçirmişəm. Evdə də söhbətlərimiz ancaq ordudan, hərbçi olmaqdan, bu peşənin müqəddəsliyindən olurdu. Atamın hərbçi yoldaşları haqqında, xidməti zamanı yaddaqalan xatirələrini həvəslə dinləyirdim. Beləcə, bu peşəyə məndə sonsuz bir istək yarandı. Bu gün bir gənc kimi çox sevinciyəm ki, öz arzumla seçdiyim və sevdiyim peşənin sahibiyəm. Təbii ki, buna hamıdan çox atam sevinir. Peşəmə sonsuz sevgi ilə bağlanmışam. Yuxarı komandanlığın qarşımıza qoyduğu bütün tapşırıqların öhdəsindən layiqincə gəlmək üçün daim çalışıram. Azərbaycan Ordusu dünya miqyasında sözünü demiş ən güclü ordulardandır. Belə ordunun zabiti olmaq da böyük məsuliyyət və fəxrdir. Hər addımda ordumuzun adını yüksək tutmaq və müqəddəs işimizdə bacarıqlı olmaq üçün əzmlə, qətiyyətlə xidmət edirik."

Şərəfli yolun hələ başlanğıcında olan Binnət daim nümunəvi zabit olmağı qarşısına məqsəd qoyduğunu bildirdi. Peşəsinin şərəfli olduğu qədər çətin olduğunu da qeyd etməyi unutmadı. "Hər peşənin öz çətinliyi var, asan iş yoxdur. Uğur qazanmaq üçün isə işini sevməli və mahiyyətini yaxşı dərk etməlisən. Məlum olduğu kimi, bizim əsas vəzifəmiz Vətəni qorumaqdır. Bu işin müqəddəsliyi isə hər kəsə bəllidir. Bütün həmkarlarım kimi mən də fəxr hissi keçirirəm ki, müqəddəs vəzifə yerinə yetirənlərin sırasındayam. Bu yolda, əlbəttə, Vətən sevgisindən güc alıram. Bu hiss mənə Vətənə bağlı olmağı, onu daim uca tutmağı öyrədir. Dövlət başçısının yüksək diqqəti və qayğısı da bütün çətinlikləri aradan qaldırır. Xidmətimdə "Vətənə, xalqa, dövlətə xidmət ömrümüzün mənasıdır" devizini rəhbər tutaraq, bu amalla yaşayır, xidmət edirəm. Daim çalışıram hərb peşəsinin incəliklərinə yaxşı bələd olan, seçdiyi yolda şərəflə, məsuliyyətlə xidmət edən bilikli, bacarıqlı zabitlərimizdən olum."

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

# “Azərbaycan əsgəri hərtərəfli hazırlıqlı olmalıdır”

Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində şəxsi heyətin mənəvi-psixoloji hazırlıq səviyyəsini artırmaq məqsədilə keçirilən ictimai-siyasi hazırlıq məşğələsinin gedişatı ilə yaxından tanış olduq. Dərs üçün nəzərdə tutulan ideoloji otağın səliqə-sahmanı göz oxşayırdı. Burada xalqımızın ümummilli lideri Heydər Əliyevin, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun ön xətdə şəxsi heyətlə görüşünü əks etdirən şəkillər, dövlət atributlarımız, tarixi qəhrəmanlarımız, sərkərdələrimiz, qan yaddaşımızı əks etdirən foto-stendlər bizdə xoş təəssürat yaratdı.



İctimai-siyasi hazırlıq məşğələsinin məqsədindən söz açan qrup rəhbəri kapitan Xalid İbişov bildirdi ki, hərbi qulluqçular Vətənin tarixini bilməlidir. “Biz şəxsi heyətə ictimai-siyasi hazırlıq dərslərini keçməklə, onlara keçmişimizi, tariximizi öyrədirik. Əsgərlərin döyüş ruhunun, mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsində ictimai-siyasi hazırlıq dərslərinin əhəmiyyəti danılmazdır. Keçirilən məşğələlər sayəsində şəxsi heyətdə ruh yüksəkliyi yaradır, onları gələcək döyüşlərə hazırlıqlı əsgər kimi yetişdirməyə çalışırıq. Bu gün torpaqlarının bir qismi işğal altında olan, düşmənlə üz-üzə dayanan, Vətən qarşısında övladlıq borcunu layiqincə yerinə yetirən Azərbaycan əsgəri hərtərəfli hazırlıqlı olmalıdır. Bunun üçün də biz komandir heyəti hər zaman əlimizdən gələni edirik. Keçirilən dərslərin əhəmiyyəti ondan ibarətdir ki, şəxsi heyət tarixi məlumatları öyrənərək zəngin bilgilər əldə edir. Bunun nəticəsidir ki, əsgərlərimiz Vətənə, tarixi köklərimizə, zəngin mədəniyyətimizə və milli irsimizə bağlılıq ruhunda tərbiyə olunur, ulu babalarımızın igidlik və rəşadət rəmzini özlərinə örnək bilirlər".

Zabit qeyd etdi ki, ictimai-siyasi hazırlıq məşğələsinin bugünkü mövzusu "Heydər Əliyev Azərbaycan xalqının Ümummilli Lideridir" mövzusudur.

- Tarixin xalqımıza bəxş etdiyi dahi şəxsiyyətin, müasir Azərbaycanın xilaskarı və memarı, ümummilli liderimiz Heydər Əliyevin bütün fəaliyyətinin məqsədi Azərbaycanı güclü, demokratik dövlətə çevirmək və xalqına firavan həyat bəxş etmək idi. Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü onun şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bağlıdır. Bu böyük şəxsiyyətin Azərbaycana 30 ildən çox rəhbərliyi dövründə ölkəmiz bütün sahələrdə böyük inkişaf yolu keçib. Ulu Öndər bütün həyatını ölkəmizin yüksəlişinə və insanların xoşbəxtliyinə həsr edib. Ümummilli Lider bəşəriyyətin sülh, əmin-amanlıq, dostluq və firavanlıq içində yaşaması üçün çox işlər görüb, - deyə zabit bildirdi.

Kapitan X.İbişov onu da əlavə etdi ki, 1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Ulu Öndər SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmiş və SSRİ-nin rəhbərlərindən biri olmuşdur. "Ümummilli lider Heydər Əliyev 20 il ərzində SSRİ Ali Sovetinin deputatı, beş il isə SSRİ Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xətdə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir. Heydər Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etmişdir. O, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmişdir. 1993-cü ilin may-iyun aylarında hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Xalqımızın ümummilli lideri Heydər Əliyevin respublikamıza rəhbərliyi dövrü Azərbaycan tarixinin ən yüksək inkişaf mərhələsi olmuşdur. Bu gün ölkəmizdə davam edən geniş quruculuq, abadlıq və yenidənqurma işləri qüdrətli şəxsiyyət Heydər Əliyev zəkasının bəhrəsidir. Müstəqil dövlətimizin tarixinə qurucu və xilaskar kimi daxil olmuş Ulu Öndərin xalqımızın taleyində, mənəvi, siyasi və ictimai həyatında misilsiz xidmətləri olmuşdur".

Əsgər İlkin Abbasov söhbət zamanı bildirdi ki, torpaqlarımızın bütövlüyü uğrunda canından keçən, şəhid olanların qisasını almağa hər zaman hazırdır: "İşğalda olan torpaqlarımızı ermənilərdən azad etmək, şəhidlərimizin qisasını almaq hər bir hərbi qulluqçunun borcudur. Döyüş hazırlığımız yüksək səviyyədə olmalıdır ki, qisasımızı alaq, torpaqlarımızı işğaldan azad edək. Komandirlərimizin rəhbərliyi altında öyrədilən bütün dərsləri, təlimləri mükəmməl dərəcədə mənimsəməyə çalışırıq. Hər an Ali Baş Komandanımızın döyüş əmrini gözləyirik".

Əsgərlər Sabir Bayramov, Emin Bədəlov, Rəşad Məbudlu və digərləri bildirdilər ki, Vətənimizin azadlığı yolunda vuruşmaq hər birimiz üçün şərəfdir. “Ön cəbhədə xidmət keçmək, düşməni daima qorxu altında saxlamaq bizim üçün xüsusilə qürurvericidir. Biz əsgər yoldaşlarımızla birlikdə Vətən qarşısındakı müqəddəs borcumuzu layiqincə yerinə yetiririk. İstəyirik ki, Ali Baş Komandanımızın döyüş əmri ilə torpaqlarımızı işğaldan azad edib, xidmətimizi Laçında, Kəlbəcərdə, Şuşada... davam etdirək.”

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

# Naxçıvan Qarnizonu Qoşunlarında komanda-qərargah təlimi başlayıb



*"Naxçıvan Qarnizonu Qoşunlarının 2020-ci tədris ilinə uzlaşma planı"na əsasən, bir neçə birləşmə və hissənin cəlb edilməsi ilə ərazidə komanda-qərargah təlimi başlayıb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, müxtəlif döyüşə hazırolma dərəcələrinə gətirilən birləşmə və hissələrin bölmələri cəmləşmə və döyüş təyinatı rayonlarına, atəş və start mövqelərinə çıxarılıb.

Xüsusi qoşun növlərinin birləşmələrinin də cəlb edildiyi təlimdə müasir rabitə və avtomatik idarəetmə sistemlərinin tətbiqi ilə məhdudgörmə şəraitində tapşırıqların yerinə yetirilməsinin operativliyi və səmərəliliyi, qarşılıqlı fəaliyyətin və hərtərəfli təminatın təşkili üzrə tədbirlər yerinə yetirilir.

Mayın 22-dək davam edəcək təlimdə düşmənin kəşfiyyat-diversiya, hava hücumu, raket və artilleriya zərbələrinə qarşı şəxsi heyətin fəaliyyətləri məşq etdirilir.

*Nümunəvi xidmət*

# “Atamın döyüş yolunu özümə örnək bilirəm”



Vətən qarşısındakı övladlıq borcunu ləyaqətlə və şərəflə yerinə yetirən əsgərlərimizdən biri də Orxan Atakişiyevdir. Orxan cəbhə xəttində yerləşən bölmələrimizdən birində xidmət edir. Qeyd edək ki, nümunəvi, hazırlıqlı əsgər dəyərləndirən başlıca xüsusiyyətlər, ilk növbədə, onun ailə, məktəb tərbiyəsindən irəli gəlir. Ordu sıralarında hərbi xidmətə başlayan gənc ilk öncə cəmiyyətdə yetişib, ailə mühitindən çıxaraq məktəbin və ictimai mühitin təsiri ilə formalaşır. Bütün qazandığı mənəvi keyfiyyətlər əsgərin az bir vaxtda hərbi kollektivdə tanınmasına səbəb olur. Orxan da həm ailədə, həm də oxuduğu təhsil ocaqlarında yüksək davranışı ilə seçilib və kollektivin hörmətini qazanıb. Bu gün isə o, artıq ordu həyatının çətinliklərini arxada qoyub, daha da mətinləşib. Adı bölmənin nümunəvi əsgərləri sırasında çəkilən Orxan sabah Vətən üçün layiqli vətəndaşdır.

"Əsgəri xidmət hər bir gəncin həyatında mühüm mərhələdir", - deyən Orxan hərbi xidmətə gəldiyi ilk vaxtları xatırladı. "Vətənə xidmət etmək hər birimizin müqəddəs borcudur. Bu şərəfli borcu ləyaqətlə yerinə yetirməliyik. İlk gündən xidmətə böyük həvəslə başladım. Qısa zaman ərzində hərbi vərdişlərə dərindən yiyələndim. Təlimlərdə, dərslərdə müsbət nəticələr göstərdim. Əldə etdiyim biliklərə görə komandirlərimə minnətdaram. Məhz onların sayəsində biz hərbi biliklərə, hərbi vərdişlərə yiyələnirik. Bir sözlə, ordu kişilik, mərdlik məktəbidir. Gərək hər kəs bu sınaqdan alnıaçıq, başı uca çıxsın.

“Əsgərlik həyatında yaddaqalan, xatırladığın günlər varmı?” sualıma cavab olaraq Orxan bildirdi ki, bu gün Azərbaycan əsgəri adını daşımağıyla qürur duyur. "Hərbi xidmət dövründə ən yaddaqalan gün Hərbi andı qəbul edib Azərbaycan Ordusu sıralarına daxil olduğum gündür. Həmin gün hərbi hissəmizdə qələbəlik idi. Azərbaycan Ordusunun sıralarına yeni qədəm qoyan gənc əsgər kimi hamıdan qürurlu görünürdük. Validеynlərimiz də gəlmişdilər. Onlar bizə fəxrlə baxırdılar. Onda bir daha dərk etdim ki, oğul həm valideynlərinin, həm xalqın, həm də Vətənin dayağıdır. Doğmalarımız bizi bağrına basıb təbrik edirdilər, əsgər andımıza sonadək sədaqətli olmağı arzulayırdılar..."

İndi o günlər arxada qalıb. Əsgər Orxan Atakişiyev komandirlərinin, təcrübəli, sədaqətli əsgər dostlarının əhatəsində günbəgün formalaşıb, mətinləşib. Onun orta məktəb illərindən idmana olan marağı orduda daha da artıb, güclənib. Orxan hesab edir ki, orduda idmanla yaşamaq, qazanılan etimad vacib amillərdəndir. "Həmişə səy göstərmişəm ki, əsgər yoldaşlarımla birlikdə komandirlərimizin etimadını, hörmətini qazanaq. Bundan ötrü biz nizamnamələri əzbər öyrənməyə, xidməti vəzifəmizi qüsursuz yerinə yetirməyə çalışırıq."

Öyrənirik ki, O.Atakişiyev Tovuz rayonunun Əyyublu kəndində doğulub boya-başa çatıb. Müharibənin acılarını kiçik yaşlarından yaşayıb. Atası Yaşar Atakişiyev 1992-1994-cü illərdə Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə iştirak edib. Təhsil aldığı Əyyublu kənd orta məktəbi Azərbaycanın Milli Qəhrəmanı Rövşən Alıyevin adını daşıyır. Tarix və ədəbiyyat fənlərini çox sevdiyini və atasının cəbhə xatirələri ilə, vətənpərvər bir mühitdə böyüdüyünü dedi Orxan. İdman üzrə də nailiyyətləri var. Yunan-Roma güləşi üzrə regionlararası yarışın qalibi olub.

Atasının döyüş yolunu özünə örnək bilən Orxan onu da qeyd etdi ki, Azərbaycan Ordusunun əsgəri kimi düşmən tapdağında olan torpaqlarımızın azadlığı uğrunda Ali Baş Komandanın əmrinə hər an hazırdır.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** 1918-1920-ci illərdə Azərbaycanda baş verən ictimai-siyasi hadisələr. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, fəaliyyəti və süqutu.

**Suallar:**

**1. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyət.**

**2. Azərbaycanın öz müstəqilliyini elan etməsi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət quruculuğu.**

**3. Azərbaycan Xalq Cümhuriyyətinin süqutunun əsas səbəbləri.**

*Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyət*

Azərbaycan öz müstəqilliyini elan etmə ərəfəsində Rusiya imperiyasının tərkibində idi. Rusiyanın 1914-cü ildə I Dünya müharibəsinə qoşulması nəticəsində ölkədə yaranan ağır iqtisadi vəziyyətdən, cəbhədəki uğursuzluqlardan məharətlə istifadə edən bolşeviklər xalq kütlələrini çar hakimiyyəti əleyhinə qaldırmağa müvəffəq oldular. 1917-ci il fevralın 27-də Rusiyada baş verən çevriliş nəticəsində çar II Nikolay taxt-tacdan əl çəkməyə məcbur oldu. Rusiyada hakimiyyət Müvəqqəti Hökumətin əlinə keçdi.

1917-ci il martın 9-da Müvəqqəti Hökumət tərəfindən Zaqafqaziyanın idarə edilməsi üçün Xüsusi İdarə Komitəsi yaradıldı. Komitəyə Dövlət Dumasının yerli üzvləri daxil edildi.

Fevral inqilabının siyasi həyata gətirdiyi canlanma nəticəsində Azərbaycanın müxtəlif sahələrində müsəlman milli şuraları yaradıldı. Bu şuralar öz fəaliyyətlərini milli məqsədlər istiqamətində qurmağa çalışırdılar. Onların arasında ən güclüsü və nüfuzlusu Bakı Müsəlman İctimai Təşkilatları Şurası idi. Bu şuranın tərkibinə milli-azadlıq hərəkatının liderləri olan Məmməd Əmin Rəsulzadə, Fətəli Xan Xoyski, Əlimərdan bəy Topçubaşov, Mehdi bəy Hacınski kimi ziyalılar daxil idilər.

Milli hərəkatın fəallarının xalqın milli hüquqlarının təmin edilməsi yolunda irəli sürdükləri tələblər milli-siyasi idealların təcəssümü kimi cəmiyyətdə əməli surətdə müdafiə olunurdu. Bu tələblər yalnız xalqın ağır yaşayışından doğan cari problemlərin həllinə deyil, eyni zamanda, ümummilli mənafeləri əks etdirən strateji vəzifələrin həllinə doğru istiqamətləndirilmişdi.

Rusiyada 1917-ci il oktyabr silahlı inqilabından sonra Zaqafqaziya Xüsusi Komitəsi öz fəaliyyətini dayandırdı və noyabrın 11-də Zaqafqaziyada hakimiyyəti öz üzərinə götürəcək müvəqqəti orqan kimi Zaqafqaziya Komissarlığı yaradıldı. Komissarlığın tərkibinə Azərbaycandan Məhəmməd Yusif Cəfərov, Xudat bəy Məlikaslanov və Xəlil bəy Xasməmmədov təyin edildi.

1918-ci il fevralın 23-də Tiflisdə Zaqafqaziya Seymi yaradıldı. Seymdə Azərbaycanı 44 nümayəndə təmsil edirdi. Yaranan ilk gündən azərbaycanlı, gürcü və erməni fraksiyaları arasında fikir ixtilafları mövcud idi. 1918-ci il aprelin 22-də Zaqafqaziya Federativ Respublikası elan edilsə də, ziddiyyətlər qalırdı.

*Azərbaycanın öz müstəqilliyini elan etməsi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət quruculuğu*

1918-ci il mayın 26-da Zaqafqaziya Seymi buraxıldı və həmin gün Gürcüstan öz müstəqilliyini elan etdi. Mayın 27-də Tiflisdə canişin sarayında Həsən Bəy Ağayevin sədrliyi ilə keçirilən və keçmiş seymin Azərbaycan fraksiyasının 44 nümayəndəsindən 26 nəfərinin iştirak etdiyi iclasda Azərbaycan Milli Şurası yaradıldı və şura Azərbaycanın idarə edilməsini öz üzərinə götürdü. Mayın 28-də M.Ə.Rəsulzadənin sədrliyi ilə Milli Şuranın ilk iclası oldu. İclasda Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi haqqında qərar qəbul edildi və "İstiqlal bəyannaməsi"nin mətni təsdiqləndi.

Milli Şurada "Müsavat", "Bitərəf Demokratlar qrupu", "Müsəlman Sosialist bloku", "Sosial-Demokratik Hümmət qrupu" və "İttihad" partiyaları təmsil olunurdu.

Milli Şuranın 28 may tarixli iclasında Azərbaycan Xalq Cümhuriyyətinin ilk hökumətinin təşkil edilməsi Fətəli Xan Xoyskiyə tapşırıldı. Həmin gün Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin tərkibi müəyyənləşdirildi.

Mayın 30-da Azərbaycanın müstəqilliyinin elan edilməsi haqqında dünyanın əsas siyasi mərkəzlərinə radio-teleqramla məlumat verildi.

İyunun 4-də Azərbaycanın nümayəndə heyəti tərəfindən Batumidə Osmanlı dövləti ilə daimi sülh və dostluq münasibətləri haqqında müqavilə imzalandı. Azərbaycan hökumətinin xahişinə cavab olaraq Ənvər Paşa hökuməti Azərbaycana 2 mln. türk lirəsi ayırdı.

1918-ci il iyunun 16-da Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Tiflisdən Gəncəyə köçdü. Milli Şura müvəqqəti hökuməti təşkil etməyi F.Xoyskiyə tapşırdı.

İyunun 17-də Gəncədə F.Xoyskinin rəhbərliyi ilə ikinci hökumət təşkil edildi. İyunun 23-də Azərbaycanda yaranmış gərgin vəziyyəti nəzərə alaraq hökumət bütün Azərbaycan ərazisində hərbi vəziyyət elan etdi.

Qatı millətçi Stepan Şaumyanın rəhbərlik etdiyi Bakı Sovetinin ixtiyarında olan əsasən erməni və ruslardan təşkil olunmuş 18 minlik hərbi qüvvə iyunun 10-da Gəncə istiqamətində yürüşə başladı. İyunun 12-də Kürdəmiri işğal edən qoşunlar iyunun 27-də Göyçaya yaxınlaşdılar. Qafqaz İslam Ordusu və Azərbaycan Ordusunun hissələri Göyçay ətrafında bolşevik-daşnak qüvvələrini darmadağın edərək Bakı istiqamətində azadlıq yürüşünə başladılar. İyunun 20-də mühüm strateji məntəqə olan Şamaxı azad edildi. Sentyabrın 15-də Azərbaycan hərbi hissələri və türk qoşunları Bakı şəhərinə hücum edərək şəhəri azad etdilər. Azərbaycan hökuməti sentyabrın 17-də Bakı şəhərinə köçdü.

Azərbaycanda siyasi hadisələrin inkişafı daxili proseslərdən daha çox I Dünya müharibəsinin gedişindən və nəticələrindən asılı idi. Azərbaycan öz mənafeyi naminə Osmanlı qüvvələrinin qalib gəlməsini arzulayırdı. Lakin Türkiyə ilə Antanta dövlətləri (Fransa, İngiltərə və ABŞ) arasında 1918-ci ilin 30 oktyabr Mudros müqaviləsinə görə məğlub sayılan Türkiyə qoşunlarını Azərbaycandan çıxarmalı, Antanta qüvvələrinin Bakıya girməsinə mane olmamalı, Zaqafqaziya dəmir yolu üzərindəki nəzarət hüququnu Antantaya güzəştə getməli idi. Noyabrın 17-də ingilis qoşunları Bakıya daxil oldular. Bakıda ingilis general-qubernatorluğu yaradıldı. İngilis qoşunlarının komandanı general Tomson Azərbaycanın müstəqilliyini tanımaq haqqında bəyanat verməkdən imtina etsə də, Azərbaycanın Paris Sülh Konfransında iştirak edəcəyi, Bakıya erməni hissələrinin daxil olmayacağı barədə öz üzərinə öhdəliklər götürdü. Dekabrın 7-də Azərbaycan Parlamentinin ilk iclası oldu. Hökumətin təşkili F.Xoyskiyə tapşırıldı. Dekabrın 26-da hökumətin tərkibi elan edildi.

1919-cu ilin aprelində Bakıda ingilis general-qubernatorluğu ləğv edildi, ingilislər Paris Sülh Konfransının şərtlərinə uyğun olaraq Qafqazı tərk etməyə başladılar. 1920-ci il yanvarın 11-də Paris Sülh Konfransı Azərbaycanın istiqlaliyyətinin tanınması haqqında yekdilliklə qərar qəbul etdi. Azərbaycan Xalq Cümhuriyyəti qısa bir müddətdə normal fəaliyyət göstərən dövlət aparatı yaratmağa, 20-dən çox dövlətlə diplomatik əlaqələr qurmağa nail oldu.

Hökumətin Gəncədə fəaliyyəti dövründə 1918-ci il iyunun 27-də Azərbaycan dilinin dövlət dili elan olunması haqqında fərman imzalandı. İyunun 27-də üzərində ağ rəngli aypara və səkkiz guşəli ulduz təsviri olan qırmızı rəngli bayraq Dövlət bayrağı kimi qəbul edildi, noyabrın 9-da isə həmin bayraq üçrəngli - mavi, qırmızı və yaşıl zolaqlardan ibarət olan bayraqla əvəz olundu.

1918-ci il avqustun 11-də ümumi hərbi səfərbərlik elan olundu. 1894-1899-cu il təvəllüdlü bütün Azərbaycan vətəndaşları hərbi xidmətə çağırıldılar. Sentyabrın 1-də Hərbi Nazirliyin yaradılması haqqında qərar qəbul edildi. 1920-ci ilin yanvarında artıq 30 min nəfər piyada, 10 min nəfər süvaridən ibarət ordu yaradılmışdı.

Təhsil sahəsində də mühüm nailiyyətlər qazanılaraq orta məktəblərin milliləşdirilməsi işinə başlandı və 1919-cu il sentyabrın 1-də Bakı Dövlət Universitetinin əsası qoyuldu.

*Azərbaycan Xalq Cümhuriyyətinin süqutunun əsas səbəbləri*

Azərbaycan beynəlxalq aləmdə tanınmasına baxmayaraq ölkənin şimal sərhədlərindəki vəziyyət gərgin olaraq qalırdı. Rusiyanın cənubunda Denikinin qoşunlarına qalib gələn bolşeviklər Bakı neftinə sahib olmaq üçün öz qüvvələrini Azərbaycan sərhədinə cəmləşdirərək işğala hazırlaşırdılar.

Bolşeviklər Azərbaycanın daxilində də təxribatçılıq fəaliyyətini gücləndirirdilər. 1920-ci ilin fevralında A.Mikoyanın rəhbərliyi ilə yaranmış Azərbaycan kommunist (bolşevik) partiyasının əsas məqsədi ölkədaxili vəziyyəti gərginləşdirmək, təxribat yolu ilə bolşeviklərin hakimiyyətə gəlməsinə şərait yaratmaq idi.

1920-ci ilin martında Qarabağda kütləvi erməni hücumlarının başlanması ilə əlaqədar Azərbaycan Ordusunun əsas qüvvələri bu bölgədə yerləşdirilmişdi. Şimal sərhədlərini qoruyan qüvvələrin böyük bir hissəsi də Qarabağa göndərilmişdi. Erməni silahlı birləşmələri ilə döyüşlərdə Azərbaycan Ordusunun hissələri canlı qüvvə, silah-sursat və əmlak itkilərinə məruz qalmışdılar. Aprelin 27-də parlamentin iclasında Hərbi nazir Səməd bəy Mehmandarov ölkəni müdafiə barədə sorğuya cavab olaraq bildirdi ki, Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrinə müqavimət göstərməyə qadir olsa da, bolşeviklərin hücumunun qarşısını almaq üçün kifayət qədər qüvvəyə malik deyildir.

1920-ci ilin aprelində Denikinin qoşunlarını məğlub edən XI qırmızı ordu Azərbaycanın sərhədlərinə yaxınlaşdı. Həmin günlərdə A.Mikoyan başda olmaqla Bakı bolşevikləri Azərbaycan xalqı adından XI rus ordusunu Azərbaycana dəvət etdilər. Aprelin 26-dan 27-nə keçən gecə XI qırmızı ordunun hissələri Azərbaycan ərazisinə daxil olub Bakıya doğru irəliləməyə başladılar.

Aprelin 27-də saat 12:00-da Azərbaycan parlamentinə hakimiyyəti təhvil vermək haqqında ultimatum verildi.

Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti 23 aylıq fəaliyyətdən sonra süqut etdi. Aprelin 28-də Azərbaycan Sovet Sosialist Respublikası elan olundu.

Aprel işğalı nəticəsində Azərbaycanda qovulan bolşevik rejiminin ömrü 70 il çəkdi. Lakin bu illərdə xalq özünün istiqlal arzularını unutmadı, nəsildən-nəslə ötürdü.

Nəhayət, 1991-ci ildə Azərbaycan yenidən öz müstəqilliyini bərpa etdi. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktında Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna belə qiymət verildi: "1920-ci il aprelin 27-28-də Rusiya Sovet Federativ Sosialist Respublikasının XI ordusunun Azərbaycana təcavüzü, respublika ərazisini zəbt etməsi, beynəlxalq hüququn subyekti olan Azərbaycan Xalq Cümhuriyyətini devirməsi Rusiyanın müstəqil Azərbaycanı işğal etməsi hesab edilsin".

Bu gün Xalq Cümhuriyyətinin varisi olan müasir Azərbaycan beynəlxalq müstəvidə öz müstəqil siyasəti və zəngin dövlətçilik ənənələri ilə təmsil olunur. Həmin dövrün dövlət rəmzləri yenidən qəbul edildi. Lakin Azərbaycan Respublikasının yarandığı ilk günlərdən Ermənistan tərəfinin ərazi iddiaları, hakimiyyət uğrunda ölkədaxili çəkişmələr dövlət quruculuğunu ləngidir, müstəqilliyimizə təhlükə yaradırdı. 1991-1993-cü illərdə Azərbaycanda yaranmış ictimai-siyasi vəziyyətin dövlətçiliyimizi təhlükə altına qoyduğunu dərk edən hakimiyyət xalqın təkidi ilə görkəmli dövlət xadimi Heydər Əliyevi ölkə rəhbərliyinə dəvət etdi. Məhz ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra onun apardığı müdrik və uzaqgörən daxili və xarici siyasət nəticəsində Azərbaycan Respublikasının dövlət quruculuğunda və bu quruculuğun vacib sahələrindən biri olan ordu quruculuğunda əsaslı dönüş yarandı. Bu gün Azərbaycan nəinki öz müstəqilliyini qoruyub saxlaya bildi, hətta dünya dövlətləri arasında böyük nüfuza malik olan bir dövlət kimi öz layiqli yerini tutdu.

Azərbaycan Xalq Cümhuriyyətinin Azərbaycanın dövlətçilik tarixindəki rolu daim xatırlanır, Cümhuriyyət rəhbərlərinin xatirəsi əziz tutulur. Ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyev tərəfindən qəbul edilən qərarlar bunu aşkar şəkildə ifadə edir. Ulu öndər Heydər Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi, Azərbaycan Xalq Cümhuriyyətinə abidə ucaldılması haqqında sərəncamları, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi, Məmməd Əmin Rəsulzadənin 130 illik yubileyinin keçirilməsi haqqında sərəncamları bu qəbildəndir.

Xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin tarixi əhəmiyyətini xüsusi vurğulayaraq demişdir: "Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin məhz Azərbaycan torpağında yaradılması xalqımızın o dövrdə və o illər ərəfəsində - XIX əsrin sonunda və XX əsrin əvvəllərində milli müstəqillik, azadlıq duyğuları ilə yaşaması ilə bağlıdır. O illərdə xalqımızın qabaqcıl şəxsiyyətləri, mütəfəkkir adamları, ziyalıları xalqımızda milli azadlıq, milli müstəqillik duyğularını gücləndirmiş, milli dirçəliş, milli oyanış əhval-ruhiyyəsini yaymış və bunların hamısı məntiqi olaraq Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına gətirib çıxarmışdır".

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

Ordu və cəmiyyət

# Böyük Vətən müharibəsində Azərbaycan xalqının mübarizə əzmi

*Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində olan Respublika Xatirə Kitabı Redaksiyası Böyük Vətən müharibəsində qazanılan Qələbənin 75 illik yubileyi münasibətilə "Qələbə-75" adlı Xüsusi buraxılış hazırlamışdır. Xüsusi buraxılışda Azərbaycanın İkinci Dünya müharibəsində iştirak etmiş qəhrəman övladları haqqında məlumatlar xüsusi araşdırılaraq dərc edilmiş, Azərbaycanın Sovet İttifaqı qəhrəmanlarının həyatı və keçdiyi döyüş yollları haqqında məlumatlar Azərbaycan və rus dillərində öz əksini tapmışdır.*




Respublika Xatirə Kitabı Redaksiyasının baş redaktoru Nəzakət Məmmədova "Qələbə-75" Xüsusi buraxılış kitabı haqqında məlumat verərək dedi:

- Bildiyimiz kimi, bu günlər dünyanın bir çox ölkələrində faşizm üzərində Qələbənin 75 illiyi qeyd olunur. Respublika Xatirə Kitabı Redaksiyası olaraq biz də 9 May - Qələbə Gününə töhfə kimi "Qələbə-75" adlı Xüsusi buraxılış hazırladıq. Buna bizim mənəvi haqqımız var. Çünki Azərbaycanın Böyük Vətən müharibəsində, həmçinin faşizm üzərində qələbənin qazanılmasında xüsusi rolu olmuşdur. Dediklərimizi sübut etmək üçün dərinə getmədən, təkcə elə rəqəmlərə diqqət yetirmək kifayət edər. 1941-ci il Böyük Vətən müharibəsi başlayanda, həmin dövrün statistikasına görə Azərbaycanda əhalinin ümumi sayı 3,4 milyon nəfər idi. Buraya həm döyüş qabiliyyəti olan cavanlar və gənclər, həm əlillər və ahıllar, həm də qadın və uşaqlar daxil idi. 3,4 milyon nəfərdən 681 min nəfəri, o cümlədən 10 min qadın orduya səfərbər olunmuşdu. Bunların tam yarısı, yəni, 300 min nəfəri cəbhələrdə həlak olmuş, doğma yurduna qayıda bilməmişdir. Bu, həm ürəkağrıdıcı, həm də qürurverici faktdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Böyük Vətən müharibəsindən bəhs edərkən demişdir: "Azərbaycan xalqı İkinci Dünya müharibəsində həm döyüş meydanlarında, həm də arxa cəbhədə əsl şücaət və əzmkarlıq nümunələri göstərmişdir. Müharibə başlanandan keçən qısa müddət ərzində Azərbaycan Respublikası ərazisində 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi təşkil edilmişdir".

**- Respublika Xatirə Kitabı Redaksiyasının yaranması özü də bu döyüşlərdə həlak olanların xatirəsinə dövlətin göstərdiyi bir ehtiramdır. Təşkilatınızın üzərinə böyük və məsuliyyətli işlər düşür.**

- Bəli, dediklərinizdə böyük həqiqət var. Müharibələrdə həlak olan və itkin düşən soydaşlarımızın xatirəsini əbədiləşdirmək üçün Xatirə Kitabı Redaksiyası yarandı. Üzərimizə böyük məsuliyyət və vəzifələr düşür. Cəbhələrdə həlak olmuş soydaşlarımızın döyüş yollarını öyrənmək, araşdırmaq olduqca məsuliyyətli bir işdir. Demək istərdim ki, bu təşkilatı zaman özü yaratdı. Çünki cəmiyyətdə buna ehtiyac duyulurdu. Respublika Xatirə Kitabı Redaksiyası şərəf dolu bir yol keçib. Azərbaycan Sovet Ensiklopediyası nəzdində bir şöbə kimi fəaliyyət göstərən Respublika Xatirə Kitabı Redaksiyası Nazirlər Kabinetinin 21 avqust 1991-ci il tarixli 277 saylı qərarı ilə müstəqil quruma çevrildi. Amma bu dövrdə redaksiyanın fəaliyyətində nəzərəçarpacaq irəliləyiş olmadı. 1994-cü ildə Nazirlər Kabineti yenidən qərar versə də, işlər lazımi məcraya düşmədi. Ölkədə baş verən ictimai-siyasi hadisələrin gərginliyi və iqtisadi çətinliklər ucbatından Xatirə Kitabı Redaksiyasının fəaliyyəti üçün vəsait ayrılması məsələsi öz müsbət həllini tapmadı. Nəhayət, ulu öndər Heydər Əliyevin tapşırığı ilə Nazirlər Kabineti 1 may 1997-ci il tarixində "Azərbaycan Respublikası Xatirə Kitabının bərpa edilməsi haqqında" xüsusi qərar qəbul etdi. Sonra isə ümummilli lider Heydər Əliyevin imzaladığı 23 dekabr 1997-ci il tarixli "Vətən uğrunda həlak olanların xatirəsinin əbədiləşdirilməsi haqqında" Qanun qüvvəyə mindi. Nəticədə Xatirə Kitabı Redaksiyası ayrıca bəndlə dövlət büdcəsindən maliyyələşdi və bununla da redaksiyanın fəaliyyətində dönüş yarandı. Ona görə də minnətdarlıq əlaməti olaraq kitabın hər cildi böyük tarixi şəxsiyyət Ulu Öndərin portreti və "Heydər Əliyev - "Xatirə Kitabı"nın yaradıcısıdır" sözləri ilə açılır.

**- Xatirə Kitabı Redaksiyasını qan yaddaşımız da adlandırmaq olar.**

- Düşünürəm ki, Xatirə Kitabı Redaksiyasını yaddaşımızın daş abidəsi də adlandıra bilərik. Onun yaradılmasında əsas məqsəd - İkinci Dünya müharibəsində, məhəlli münaqişələrdə, Polşa, Çexoslovakiya, Macarıstan hadisələrində, Əfqanıstan müharibəsində, 20 Yanvar faciəsində, Xocalı soyqırımında, Qarabağ döyüşlərində, milli müstəqilliyimiz yolunda, torpaqlarımızın azad olunması uğrunda gedən döyüşlərdə həlak olmuş və itkin düşən soydaşlarımız haqqında çoxcildlik ensiklopediya hazırlamaqdır. Kitabın redaksiya heyətinə akademiklər, tarixçilər, görkəmli elm, mədəniyyət xadimləri və güc strukturlarının rəhbərləri daxildirlər. İndiyə kimi kitabın 16 cildi nəşr olunub və növbəti cildlərin hazırlanması üzərində işlər davam etdirilir.



**- İşlərinizi yalnız ölkə daxilində aparırsınız, yoxsa başqa ölkə və təşkilatlarla da əlaqələr qurursunuz?**

- Respublika Xatirə Kitabı Redaksiyası öz fəaliyyətində təkcə respublikadaxili müvafiq arxiv materiallarının araşdırılması ilə kifayətlənmir. Əməkdaşlarımız Rusiya Federasiyası Müdafiə Nazirliyinin müxtəlif arxivlərindən, "Ümumrusiya Tarixçilər və Arxivçilər Cəmiyyətindən", "Sevastopolun müdafiəsi və azad edilməsi" muzeyindən, Şimali Osetiya Respublikası Mozdok rayonunun "Poisk" ("Axtarış") dəstəsindən, Moldova Respublikasından, Avstriya Respublikasından və digər yerlərdən əldə etdiyi məlumatları araşdırıb dəqiqləşdirməklə daim axtarışlar aparıblar. Axtarış və araşdırmalar bu gün də davam edir. Axtarışlar nəticəsində indiyə qədər aşkara çıxarılmamış 3000 nəfərə yaxın həlak olmuş və itkin düşmüş soydaşlarımız barədə məlumatlar dəqiqləşdirilib və onların bir qismi artıq cildlərə daxil edilib.

**- Böyük Vətən müharibəsində xalqımız təkcə canlı qüvvəsi ilə deyil, həm də nefti ilə hitlerçilərlə vuruşurdu.**

- Almaniya Sovet İttifaqına qarşı müharibəyə 22 iyun 1941-ci ildə başladı. Alman komandanlığı Bakı neftinə xüsusi önəm verirdi və Qafqaz uğrunda vuruşlarda əsas məqsəd Bakı üzərində nəzarəti ələ keçirmək idi. O zaman SSRİ-də çıxarılan neftin təxminən dörddəüç hissəsi Azərbaycanın payına düşürdü. Təkcə 1941-ci ildə Azərbaycanda 23,5 milyon ton neft hasil edilmişdi. Müharibə illərində Azərbaycan Sovet İttifaqının başlıca təminat bazasına çevrilərək cəbhəyə 75 milyon ton neft verirdi. Düşmənlərin başına mərmilər yağdırıb, ağır zərbələr endirən təyyarələrin 85-90 faizi yüksək oktanlı Azərbaycan benzini ilə işləyirdi. Qeyd etdiyiniz kimi, müharibədə Azərbaycan cəbhəni təkcə neftlə təmin etmirdi. Azərbaycanlı əsgər və zabitlər də od-alov püskürən döyüş meydanlarında misilsiz şücaət göstərirdilər. Cəbhənin elə bir istiqaməti yox idi ki, həmvətənlərimiz orada iştirak etməsinlər. Azərbaycanlılardan ibarət 416-cı, 223-cü, 77-ci milli diviziyalar təşkil olunmuşdu. Bu diviziyalarda Azərbaycandan 123 nəfər soydaşımız böyük şücaət və qəhrəmanlıqlar göstərərək SSRİ-nin ən yüksək fəxri adına - Sovet İttifaqı Qəhrəmanı fəxri adına layiq görüldülər. Şimali Qafqazın müdafiəsində Qafur Məmmədov, Stalinqrad uğrunda döyüşlərdə Həzi Aslanov, Margita şəhərində gedən döyüşlərdə Gəray Əsədov igidliyə görə "Qızıl Ulduz" aldılar. Bu şərəfli ada xalqımızın cəsur oğlu tank qoşunları general-mayoru Həzi Aslanov 2 dəfə layiq görüldü. Araşdırmaların nəticəsi olaraq əldə olunan yeni məlumatlar isə gələcək cildlərdə yer alacaq.

**- "Qələbə-75" Xüsusi buraxılışı, yəqin ki, sizin Qələbə Gününə böyük bir töhfənizdir.**

- Kitabdakı faktlar ciddi tarixi resurslara əsaslanıb, müharibənin yaratdığı faciələr burada dolğun şəkildə öz əksini və ifadəsini tapıb. Bir sözlə, Böyük Vətən müharibəsi zamanı Azərbaycan xalqının mübarizə əzmi, Bakı nefti, arxa cəbhədə çalışanların fədakarlığı kitabın ən müfəssəl tarixi gerçəklikləridir. Ümid edirik ki, Xatirə Kitabı Redaksiyasının hazırladığı "Qələbə-75: Azərbaycan xalqının mübarizə əzmi" kitabı 9 May - Qələbə Gününə layiqli töhfə olacaq.

**Müsahibəni yazdı:**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində taqım komandiri vəzifəsində xidmət edən zabitin yataqxananın üçüncü mərtəbəsindən düşərək ağır xəsarətlər alması məlum olub.

İşğal altında olan Ağdərə yaşayış məntəqəmizdə yerləşdirilən hərbi hissədə xidmət edən leytenant Qaqik Petrosyan ağır bədən xəsarətləri və çoxlu sayda sınıqlar ilə hospitala yerləşdirilib. Onun vəziyyəti həkimlər tərəfindən ağır qiymətləndirilir.

Q.Petrosyan hərbi polisin əməkdaşı ilə söhbət zamanı guya yataqxananın pəncərəsini təmir edərkən ehtiyatsızlıqdan yıxıldığını qeyd edib.

Lakin əsgərlər arasında söz-söhbət gəzir ki, taqım komandiri tabeliyində olan hərbi qulluqçulara qarşı həddən artıq qəddar davrandığı üçün iki əsgər onun aşağı düşməsinə "kömək" ediblər.

Rəsmi açıqlama verilməsə də, faktla bağlı araşdırma aparılır.

* * *

İşğal olunmuş Ağdərə yaşayış məntəqəmizdə yerləşdirilən düşmən ordusunun bölmələrindən birinin hərbi qulluqçusu ciddi xəsarət alıb. Hərbi hissənin zabitlərindən birinin şəxsi maşınında hərbi hospitala çatdırılan A.Martirosyanda müayinə zamanı həm də koronavirus infeksiyası aşkarlanıb.

Araşdırma zamanı məlum olub ki, hərbçinin təhlükəsizlik qaydalarını pozaraq xəsarət almasına səbəb spirtli içki qəbul etməsidir. Təhqiqat zamanı o da məlum olub ki, fövqəladə hal elan edilməsinə və karantin rejiminin tətbiq olunmasına baxmayaraq, A.Martirosyan tez-tez xidmət yerini özbaşına tərk edərək yaxınlıqdakı yaşayış məntəqəsində yaşayan sevgilisinin yanına kef məclislərinə gedirmiş. Həkimlər hərbi qulluqçunun koronavirus infeksiyasına məhz həmin məclislərdə yoluxduğundan şübhələnirlər.

A.Martirosyanla təmasda olan 17 hərbi qulluqçu həkim nəzarətinə götürülüb və eyni zamanda, onun əlaqədə olduğu mülki şəxslər barədə də səhiyyə müvəkkilinə məlumat verilib.

Hər iki fakt hərbi polis əməkdaşları tərəfindən araşdırılır.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində xidmət edən hərbi qulluqçular arasında nizamnamədənkənar münasibətlər zəminində baş verən daha bir cinayət hadisəsi ortaya çıxıb. Xidmət yoldaşlarının "xahişini" yerinə yetirməkdən imtina edən əsgər təhqirə məruz qalıb və nəticədə dava düşüb.

Düşmən ordusunun Madagiz yaşayış məntəqəmizdə yerləşdirilən minaatan divizionun əsgəri Eduard Kolonyan xidmət yoldaşlarının haqsız tələblərini yerinə yetirməkdən imtina etdiyi üçün vəhşicəsinə döyülüb.

Hadisə hüquq-mühafizə orqanlarından gizlədilir. Əsgər E.Kolonyan saxta soyuqdəymə diaqnozu ilə tibb məntəqəsinə yerləşdirilib və komandanlıq tərəfindən tələb olunur ki, o, şikayət etməsin.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrinin birində dözülməz şəraitdən, həkimlərin laqeyd münasibətindən və baxımsızlıqdan təngə gələn erməni əsgər fərarilik edib.

Yerevandan hərbi xidmətə çağırılan Ermənistanın Lusakert təlim mərkəzində artilleriya hazırlığı kursu keçdikdən sonra Qarabağa göndərilən əsgər Tiqran Tovmasyan xidmət yerini özbaşına tərk edib.

Politexnik institutunun məzunu olan və 6-cı dağatıcı alayında xidmət edən T.Tovmasyan hərbi hissənin tibb məntəqəsinə müraciət edib. Baxımsızlıqdan və həkimlərin biganəliyindən narazı qalan erməni hərbçi xidmət yerini icazəsiz tərk edərək evlərinə qaçıb.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

# Naxçıvan Qarnizonunda hərbi beşnövçülük üzrə yarışlar keçirilib

*Naxçıvan Qarnizonunda hərbi beşnövçülük üzrə yarışlar keçirilib. Yarışlarda Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlıları fərqləniblər.*



Hərbi qulluqçuların fiziki və psixoloji dözümlülüyünün yoxlanılması, güclü komandaların tərkibinin müəyyən edilməsi məqsədi ilə keçirilən birincilikdə 15 komandadan 90 idmançı mübarizə aparıb.

İdmançı hərbi qulluqçular maneələr zolağının dəf edilməsi, 200 metr məsafəyə avtomatdan atəş açma, uzaqlığa və dəqiqliyə qumbaraatma, 8 km məsafəyə kross qaçışı və üzgüçülük növləri üzrə yarışlarda güclərini sınayıblar.

Ümumi nəticələrə əsasən, komanda hesabında 1-ci yerdə xüsusi təyinatlılar, 2-ci yerdə Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının hərbi qulluqçuları, 3-cü yerdə isə motoatıcılar qərarlaşıb.

Birinciliyin nəticələrinə əsasən, ilk üçlükdə qərarlaşan komanda və hərbi qulluqçulara Əlahiddə Ümumqoşun Ordu Komandanlığı tərəfindən fəxri fərman, diplom və kuboklar təqdim edilib.

**Baş leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

*Fiziki hazırlıq*

# Güclü, çevik, hazırlıqlı...

*Hərbi hissəyə gəlişimiz şəxsi heyətin fiziki hazırlıq saatına təsadüf etmişdi. Vətənin müdafiəçiləri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Samid Ağayevin rəhbərliyi altında qurğularda müxtəlif idman elementlərini yerinə yetirirdilər. Hiss olunurdu ki, əsgərlər fiziki cəhətdən hazırlıqlıdırlar. Onlar ardıcıl olaraq müxtəlif alətlərdə məşq edirdilər. Məşğələ bitdikdən sonra Vətənin keşiyində mətinliklə dayanan oğullarımızla həmsöhbət olduq.*



Çavuş Samid Ağayev əsgərlərimizin sağlamlığının möhkəmləndirilməsində fiziki hazırlığın müstəsna rolu olduğunu qeyd etdi. "Ölkə rəhbərliyinin diqqət və qayğısı nəticəsində ordumuzun arsenalına mütəmadi olaraq müasir silah və texnikalar daxil edilir. O da unudulmur ki, bu silah və texnikaların səmərəliliyi onu idarə edən hazırlıqlı əsgərdən asılıdır. 2016-cı ilin Aprel döyüşləri bunu təsdiqlədi. Həmin döyüşlərin iştirakçısı olaraq deyə bilərəm ki, yetərincə bilikli və fiziki cəhətdən hazırlıqlı əsgərlərimiz qarşıya qoyulan tapşırığın öhdəsindən layiqincə gəldilər. Müharibə hələ bitməyib. Bu səbəbdən ordu sıralarında xidmət edənlərin döyüş hazırlığının yüksək səviyyədə saxlanılması daim diqqət mərkəzindədir".

- Atam Qarabağ müharibəsi veteranıdır, - deyə əsgər Sənan Həsənov söhbətə başladı. - O deyirdi ki, hər birimiz gələcəyin əsgəri olacağıq. Bunun üçün kiçik yaşlarımızdan fiziki cəhətdən güclü olmağımızı istəyirdi. Yaşadığımız evin yaxınlığında idman zalı vardı. Həmin zalda idmanın boks növü ilə məşğul olmağa başladım. Çalışırdım ki, məşğələlərdə fəal iştirak edim. Çempionatlarda, turnirlərdə qazanılan qələbə idmançının zəngin təcrübəsindən xəbər verir. 2011-ci ildə gücümü və təcrübəmi sübut etmək imkanı qazandım. Həmin il keçirilən respublika çempionatının qalibi oldum. Qalib kimi üçrəngli bayrağımızın başımın üstündə dalğalanmasını görəndə idmançıların hansı hisslər keçirdiyini anladım.



Hərbçi yoldaşının fikirlərini davam etdirən əsgər Rzaxan Talıbov bildirdi ki, ali məktəbi bitirdikdən sonra Vətənə mənəvi borcumuzu yerinə yetirmək qürurvericidir. "Bu gün Vətənimizə istər ordu sıralarında, istərsə də mülki həyatda savadlı kadrlar gərəklidir. Bu gün hərbi mundir geyinmişik. Çalışmalıyıq ki, hərbin sirlərini dərindən mənimsəyək. Fiziki cəhətdən güclü və hər an döyüşə hazır olmalıyıq. Hərbi hissəmizdə bunun üçün hər cür şərait yaradılıb. Döyüş qabiliyyətimizin yüksəldilməsi üçün fiziki çalışmaların bütün forma və vasitələrindən istifadə edir, səhər və axşam kompleks məşğələlər yerinə yetiririk. Hər birimizi bir amal birləşdirir - işğal altında olan torpaqlarımızı düşmən tapdağından azad etmək. Bu müqəddəs vəzifənin öhdəsindən gəlmək üçün əlimizdən gələni əsirgəmirik. Tezliklə Ali Baş Komandanımızın döyüş əmri ilə xalqımıza qələbə sevincini yaşadacağıq."

Əsgərlər Seyfəddin Rzayev, Sərxan Mirzəbəyov, Müşfiq Əliyev, Emil Valehli və digərləri bildirdilər ki, hər an Ali Baş Komandanımızın əmriylə torpaqlarımızı işğaldan azad etməyə hazırıq. "Sevinirik ki, qalib və güclü ordunun əsgəriyik. Ordumuzun daha da güclü olması naminə döyüş hazırlığımız və hərbi biliklərlə yanaşı, fiziki hazırlığımızın da yüksəldilməsi üçün mühüm tədbirlər görülür. Ordu sıralarında xidmət edən hər kəs yuxarı komandanlığın diqqət və qayğısı ilə əhatə olunub. Bunun sayəsində Azərbaycan Ordusu nəinki bölgədə, dünya miqyasında güclü ordular sırasındadır".

Gördüklərimiz onu deməyə əsas verir ki, əsgərlərimiz yüksək döyüş hazırlığına malikdirlər. Bu, Böyük Qələbə uğrunda gedəcək döyüşlərə az qaldığını, torpaqlarımızın tezliklə işğaldan azad ediləcəyinə inamımızı daha da artırır...

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyə, İraq və Suriya ərazisində 8 terrorçu məhv edilib



Türkiyənin təhlükəsizlik qüvvələrinin Qars bölgəsində həyata keçirdiyi antiterror əməliyyatı nəticəsində 3 terrorçu məhv edilib.

Türkiyə Silahlı Qüvvələrinin Suriya ərazisində reallaşdırdığı "Sülh çeşməsi" antiterror əməliyyatının aparıldığı bölgəyə keçmək istəyən terrorçu qrupa da zərbə vurulub. Milli Müdafiə Nazirliyinin məlumatında bildirilir ki, bu əməliyyatda 2 PKK-YPG terrorçusu məhv edilib. Nazirliyin yaydığı digər bir informasiyada bildirilir ki, Hərbi Hava Qüvvələrinin qırıcıları İraqın şimalındakı Hakurk bölgəsində yerləşən PKK düşərgələrinə dəqiq zərbələr endirib. Nəticədə 3 terrorçu zərərsizləşdirilib.

## Misir ordusu Şimali Sinayda 7 terrorçunu məhv edib



Şimali Sinay vilayətində iki həftə əvvəl Misir Silahlı Qüvvələrinin əsgərlərini qətlə yetirən terrorçu qruplaşmaya qarşı daha bir əməliyyat həyata keçirilib.

Bu barədə jurnalistlərə ordunun sözçüsü Tamer Əl-Rəfai məlumat verib. O bildirib ki, antiterror əməliyyatı zamanı 7 terrorçu məhv edilib, ərazidən 10 partlayıcı qurğu və çoxlu sayda silah-sursat götürülüb.

Misir ordusu may ayında Şimali və Mərkəzi Sinay ərazisində keçirdiyi 12 antiterror əməliyyatında 126 terrorçunu məhv edib. Bu əməliyyatlarda Silahlı Qüvvələrin üç zabiti və səkkiz əsgəri həlak olub. Terrorçuların düşərgələrində 630 partlayıcı qurğu aşkar edilərək götürülüb, səkkiz tunel dağıdılıb. Bundan başqa, Misirin Hərbi Hava Qüvvələri tərəfindən silahlı qruplaşmaya məxsus 228 sığınacaq, 116 nəqliyyat vasitəsi də bombalanaraq sıradan çıxarılıb.

## ABŞ Hərbi Hava Qüvvələrinə məxsus "F-22" qırıcısı Florida poliqonunda qəzaya uğrayıb



ABŞ Hərbi Hava Qüvvələrinə (HHQ) məxsus "Raptor F-22" markalı qırıcı təyyarə cümə günü səhər Florida ştatındakı Eqlin aviabazasının poliqonunda məşq uçuşu zamanı qəzaya uğrayıb.

ABŞ Hərbi Hava Qüvvələrinin bəyanatında bildirilir ki, pilot katapultla tullana bilib, onun vəziyyəti sabitdir.

ABŞ HHQ-nin bəyanatında deyilir: "43-cü qırıcı eskadraya məxsus, hazırda Eqlin aviabazasında, 325-ci qırıcı aviasiya alayının tərkibində olan F-22 qırıcısı səhər saat 9:15 radələrində qəzaya uğrayıb. Hadisə yeri Eqlin poliqonunda sınaqlar və məşqlər üçün əsas bazadan 12 mil (19 kilometr) şimal-şərqdədir".

## Əfqanıstanda "Taliban"ın hücumları nəticəsində səkkiz hərbçi həlak olub



Əfqanıstanın şərqində yerləşən Paktiya əyalətində "Taliban" hərəkatının hücumları nəticəsində azı səkkiz hərbçi həlak olub, doqquz nəfər isə yaralanıb.

Taliblər gecə saatlarında Maçalqu bəndi rayonunda nəzarət-buraxılış məntəqələrinə hücumlar ediblər. Əfqanıstan ordusu isə öz növbəsində döyüşlər zamanı həmin rayonda doqquz silahlının öldürüldüyünü, beşinin isə yaralandığını bildirib.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Vahid MƏHƏRRƏMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 315
Nüsxə 3960